**Azərbaycan Respublikası**
**Gənclər və İdman Nazirliyi**

**“Maarifpərvərlik” Azərbaycan Gənclərinin**
**İctimai Yardım Assosiasiyası İctimai Birliyi**

## ““COP29” və “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində region gənclərinin ekoloji maarifləndirilməsi”




Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 25 dekabr 2023-cü il tarixli Sərəncamı ilə 2024-cü il Azərbaycanda ***“Yaşıl dünya naminə həmrəylik ili”*** elan edilmişdir. ***Məqsəd*** Azərbaycanda yaşıl iqtisadiyyatın inkişafı, habelə ölkəmizdə bərpa olunan enerji mənbələri, yaşıl enerji, yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqlinin təmin olunmasıdır.

***Flayer Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin qrant müsabiqəsi çərçivəsində çap olunub, satış üçün deyil!***

## “COP29” nədir?

### *Conference of Parties — Tərəflərin Konfransı*

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası insanın iqlim sisteminə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə ***1992-ci ilin iyununda Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində*** imzalanmış sazişdir.
Tərəflərin Konfransı İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının icrasına nəzarət edən ***ali qərarverici orqandır***.

Burada tərəflər Konvensiyaya üzv olan ***198 ölkədir***. Əgər tərəflərin fərqli qərarı olmazsa, ***COP*** hər il keçirilir.

COP-un ilk tədbiri 1995-ci ilin martında ***Almaniyanın paytaxtı Berlin şəhərində*** baş tutub, katibliyi isə ölkənin Bonn şəhərində yerləşir.

COP-a sədrlik rotasiya (yerdəyişmə) əsasında BMT-nin 5 regionunun – ***Afrika, Asiya, Latın Amerikası, Karib Hövzəsi və Avropa (Mərkəzi, Şərqi, Qərbi və digər) ölkələrinə*** keçir.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının ***Tərəflər Konfransının 29-cu sessiyası*** 2024-cü ilin 11-22 noyabr tarixlərində Azərbaycanda keçiriləcək. Bununla bağlı qərar COP28-in ötən il dekabrın 11-də Dubayda keçirilmiş plenar iclasında qəbul olunub.

